**Azərbaycan xalqı 44 günlük Vətən müharibəsini bir il sonra – bu dəfə qalibiyyətin verdiyi qürur və əminlik hissi ilə yenidən yaşayır. 27 sentyabr Azərbaycanda Anım Günü olaraq hər il geniş qeyd ediləcək. Bu tarix bizə ötən il hiss etdiyimiz qarışıq duyğuları yenidən yaşatmaqla yanaşı, qarşıdan gələcək günlərin proqnozlarını da xatırladır. Ona görə qarışıq ki, xalqımız bir yandan azad olan kəndlərin, yaşayış məntəqələrinin, strateji yüksəklik və postların geri qaytarılmasını qeyd edir, bir yandan da gələn şəhid xəbərlərlərindən sarsılırdı. Təsəllimiz o idi ki, şəhidlərin qanı yerdə qalmır, rəşadətli ordumuz gündən-günə irəliləyir, bir addım belə olsun, geri çəkilmirdi. Bu fikirləri Prezident İlham Əliyevin Tərtər və Bərdə rayonlarına səfəri ilə bağlı bizimlə fikirlərini bölüşən Azərbaycan Naminə Alyans Partiyası sədrinin birinci müavini Asif Haqverdiyev bildirdi. O, dedi:**

# Azərbaycan müharibənin yaralarını sürətlə sağaldır

– Bugünkü proseslərin gedişinə nəzər saldıqda görünür ki, Azərbaycan müharibənin yaralarını sürətlə sağaldır. Biz hamımız Prezident İlham Əliyevin işğaldan azad edilən torpaqlarımızın yenidən qurulması, bərpası, bu ərazilərə həyatın qayıtması üçün gecə-gündüz, fasiləsiz çalışdığının şahidi oluruq. Əlbəttə, bu, xalq üçün, ələlxüsus gənclər üçün böyük stimuldur. Çünki həqiqi lider təkcə göstəriş verən yox, eyni zamanda, xalqın önündə gedən, yol göstərən şəxsdir.

Müharibənin ardından ölkəmizin başçısı işğaldan azad edilən bölgələrimizə tez-tez səfər edir. Əlbəttə, zaman keçdikcə, bu səfərlərin mahiyyəti dəyişir. Belə ki, dövlət başçısı ilk vaxtlar erməni terrorçularının bölgədə törətdiyi vəhşiliklərin miqyasını, torpaqlarımıza, ümumilikdə, infrastrukturumza dəyən zərəri yerindəcə görmək, müvafiq tapşırıqlarını vermək üçün bölgəyə səfər edirdi. İndi isə bu səfərlər çəkilən zəhmətin bəhrəsini görmək, bölgədə yaradılan şəraitlə şəxsən tanış olmaq üçün həyata keçirilir.

Yeri gəlmişkən, qeyd edək ki, oktyabrın 3-də ölkəmizin basçısı Tərtər və Bərdə rayonalarına səfər edib. Bildiyiniz kimi, silahlı qüvvələrimizin qarşısında tab gətirə bilməyən erməni quldurları xain xislətlərini bir daha üzə çıxararaq dinc insanların yaşadığı rayonlarımızı, yaşayış məntəqələrimizi müxtəlif növ ağır silahlardan atəşə tuturdu. Düşmənin bu qorxaq əməli nəticəsində Təkcə Tərtərdə 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanıb. Bununla yanaşı, 6000 minə yaxın fərdi ev, 82 hündürmərtəbəli bina, çox sayda sahibkarlıq və qeyri-yaşayış obyekti, eləcə də mədəniyyət ocaqları, məktəblər, tibb məntəqələri dağıdılmışdır.

Prezident İlham Əliyevin göstərişi ilə düşmənin yaşayış məntəqlərimizi atəşə tutması nəticəsində həlak olan mülki vətəndaşlarımıza da şəhid statusu verilmişdir. Bundan əlavə, raket zərbələri nəticəsində dağıdılan evlər və obyektlərin tikintisinə



start verilmişdi ki, artıq bu layihələrin böyük əksəriyyəti tamamlanıb. Tərtər rayonuna səfəri zamanı evləri dağıdılmış vətəndaşlar üçün yenidən tikilən evlərdə yaradılan şəraitlə də yaxından tanış olan İlham Əliyev bildirdi ki, yaxın zamanda bu işlər tamamlanacaq. Məktəblərin və qeyri-yaşayış obyektlərinin də tikinti işləri davam etdirilir. Sevindirici haldır ki, onların bir çoxunda bərpa işləri tamamlanıb və binalar istifadəyə verilib.

Prezident İlham Əliyev oktyabrın 3-də işğaldan azad edilən Talış kəndini və Suqovuşan qəsəbəsini də ziyarət edib. Biz hamımız bir il əvvəlki tarixi yaxşı xatırlayırıq. Suqovuşanın işğaldan azad olunması müharibənin davamı üçün çox əhəmiyyətli hadisə idi. Buna görə də bu xəbər respublikamızda çox sevinclə qarşılandı. Prezident İlham Əliyev Suqovuşanda bu qəsəbənin işğaldan azad edilməsinin bir illiyində Azərbaycan bayrağını ucaltdı.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, “Xalq qəzeti”***